KRED

№29 (1159) 26 iyul 2023-cü il

# ALİM ANILDI



Qədirbilən insanlara eşq olsun!.. Var olun, əziz və dəyərli dostlar!..

Çox sağ olun, çox hörmətli, xeyirxah insanlar!.. Ən əsası da, Mədədsevərlər!.. Bu isti yay günündə əziyyət çəkib Tiflisə - M.F.Axundovun Ev muzeyinə gəlib atam - Professor Mədəd Çobanovun əziz xatirəsinə həsr olunmuş anım günündə iştirak edən hər birinizə ayrı-ayrılıqda təşəkkür edirik!.. Xüsusilə də Gurcustan Azerbaycanlilari Konqresinin sədri, mənim əziz və dəyərli qardaşım Huseyn Yusubova və M.F.Axundovun Ev muzeyinin direktoru çox hörmərli Leila Aliyevaya öz minnətdarlığımızı bildiririk. Var olun!.. Nə yaxşı ki, varsınız!.. Nə qədər ki, sizlər və sizin davamçılarınız var olacaq, deməli Borçalı və Borçalılar yaşayacaq!.. Ən əsası, insanlıq, xeyirxahlıq, qədirşünasıq yaşayacaq!..



Bütün qədirbilən insanlara təşəkkür edirəm!..

Allah sizlərə uzun ömür, möhkəm cansağlığı, xoşbəxt həyat, bol ruzu, yeni-yeni uğurlar, bir-birindən böyük nailiyyətlər nəsib eyləsin.

Atama da, Sizin bütün dünyasını dəyişənlərinizə də Allah rəhmət eləsin!... Amin...

***Müşfiq ÇOBANLI***
***2023***